

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 71 (21.481)

20 aprel 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azəravtoyol" ASC-nin yeni inzibati binasının açılışında iştirak edib.

"Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına inzibati binada yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, 1,7 hektar sahəsi olan bu ərazidə genişmiqyaslı təmir-tikinti, abadlıq-quruculuq işləri aparılıb.

İnzibati binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulub, dahi rəhbərin həyatı və siyasi fəaliyyəti ilə bağlı fotolardan ibarət guşə yaradılıb.

"Azəravtoyol" ASC-nin əvvəlki inzibati binasının sahəsi bu təşkilatın və investisiya layihələri üzrə işçi qruplarının səmərəli fəaliyyət göstərməsi üçün kifayət etmədiyindən, "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri qəsəbəsindəki xəstəxana kompleksinin yararsız vəziyyətə düşmüş dördmərtəbəli üç korpusu bu qurumun balansına verilib. ASC-nin inzibati ofisi, investisiyaların idarə olunması üzrə işçi layihə qrupları və "Azəryolelmitədqiqatlayihə İnstitutu" MMC bu inzibati binaya köçürülüb. Burada işçilər üçün, ümumilikdə, 210 kabinet yaradılıb. Bina ən müasir havalandırma və yanğından mühafizə sistemləri ilə təchiz edilib.



## Ulu öndər Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu

### Bu mövzuda ali təhsil ocağında Heydər Əliyev Universitetinin növbəti məşğələsi keçirilib

***Ölkəmizdə 1993-cü ildən başlayaraq ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər nəticəsində bu gün müstəqil Azərbaycan Respublikasının Silahlı Qüvvələri dünyanın qüdrətli orduları sırasında layiqli yerini tutub.***

Bu barədə Naxçıvan Dövlət Universitetinin Heydər Əliyev Universitetinin "Ulu öndər Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusuna həsr olunmuş növbəti məşğələsində danışılıb.

Ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ulu öndər Heydər Əliyevin ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edib.



Qeyd olunub ki, müstəqilliyini bərpa edən Azərbaycan Respublikası ilk illərdə ordu quruculuğu sahəsində ciddi çətinliklərlə qarşılaşıb. Həmin illərdə ölkə rəhbərliyində olan səriştəsiz, bacarıqsız şəxslərin həyata keçirdiyi uğursuz siyasət nəticəsində dağınıq silahlı birləşmələr daxili siyasi mübarizəyə cəlb olunub, ayrı-ayrı şəxslərə və siyasi qruplara xidmət edən silahlı dəstələrə çevriliblər. Yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra vahid komandanlığa tabe olan nizami ordu formalaşdırılıb, bütün problemlər öz həllini tapıb.

Universitetin Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının müəllimi Nazim Həsənov "Ulu öndər Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda məruzəsində ümummilli liderimizin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlərdən danışıb. Ölkə Prezidentinin bu sahədəki yorulmaz fəaliyyətini xüsusi vurğulayıb.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində həyata keçirilən ardıcıl tədbirlərdən söz açan məruzəçi dövlət başçısının diqqət və qayğısı sayəsində qədim diyarda hərbi hissələr üçün onlarla yeni binaların, müxtəlif təyinatlı obyektlərin tikilib istifadəyə verildiyini, Əlahiddə Ümumqoşun Ordusunun silah-sursatla tam təmin edildiyini diqqətə çatdırıb.

**Nərmin CABBAROVA**

## Əhaliyə keyfiyyətli rabitə xidməti göstərilir

***Muxtar respublikada yeni texnologiyaların tətbiqi istiqamətində işlər 2016-cı ilin birinci rübündə də davam etdirilmiş, bu sahənin inkişafına xidmət edən layihələr uğurla icra olunmuşdur.***

Bu dövrdə yaşayış məntəqələrində telefon və digər rabitə xidmətlərinin müasir tələblər əsasında təşkilinə diqqət artırılmışdır. Belə ki, Şərur rayonunun Yuxarı Yaycı və Axaməd, Babək rayonunun Xəlilli və Xal-xal, Ordubad rayonunun Kotam kəndlərində müasir ATS-lər quraşdırılmış, Culfa rayonunun Saltaq, Babək rayonunun Xəlilli, Kəngərli rayonunun Yurdçu, Şərur rayonunun Oğlanqala və Şahbuz rayonunun Daylaqlı kəndlərində yeni poçt bölmələri istifadəyə verilmişdir. Bu dövrdə "Evədək optika" layihəsinin icrası ilə əlaqədar 27 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmişdir. Ümumiyyətlə, rüb ərzində muxtar respublikada 15 kilometrə yaxın fiber-optik kabel xəttinin tikintisi həyata keçirilmiş, 679 yeni telefon nömrəsi istismara verilmişdir. Həmçinin genişzolaqlı "Asinxron Rəqəmsal Abunəçi Xətləri" texnologiyası vasitəsilə 1361 abunəçi internetlə təmin olunmuşdur.

Abunəçilərə yüksəkkeyfiyyətli rabitə və internet xidməti göstərən "Naxtel"in imkanlarının genişləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, rüb ərzində daha 14 baza stansiyası qurulmuş və 4-cü nəsil baza stansiyaların sayı 95-ə çatdırılmışdır. Babək rayonunun Sirab kəndində yerləşən baza stansiyası isə daha uyğun yerə köçürülmüşdür.

Muxtar respublikada Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istifadəyə verilmişdir. Bunun üçün müvafiq proqram təminatı hazırlanmış və Naxçıvan Muxtar Respublikasının Ali Məclisində server qurulmuşdur. Bu günədək 75 idarə və təşkilat İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə qoşulmuş və təşkilatların mütəxəssisləri bununla bağlı keçirilən təlim kurslarında iştirak etmişlər. "Naxçıvanpoçt" MMC-nin elektron şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulması prosesi də başa çatdırılmış, sistemə qoşulmuş bütün bank-maliyyə sektorunun və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılmasına başlanılmışdır.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

## Vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin test imtahanı mərhələsinə yekun vurulub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan verilən məlumata görə, dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün komissiya tərəfindən 20 fevral 2016-cı il tarixdə elan edilmiş müsabiqənin test imtahanı mərhələsi başa çatıb. Müsabiqəyə 36 dövlət orqanı üzrə 294 vakant vəzifə çıxarılmışdı.

1-15 aprel 2016-cı il tarixlərdə keçirilən test imtahanlarında 634 namizəddən 563-ü iştirak edib, 141 namizəd keçid balını (70 və daha çox) toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

Test imtahanlarının nəticələri və müsahibə mərhələsi üçün müsahibə proqramları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet səhifəsində yerləşdirilib.

Hazırda komissiya tərəfindən müsahibə mərhələsi üçün sənəd qəbulu aparılır. Sənəd qəbulu aprelin 29-dək davam edəcəkdir. Namizədlər müsahibənin keçirildiyi yer və vaxt barədə qanunvericiliyə uyğun olaraq ən azı 5 gün əvvəldən komissiyanın internet saytı (***www.dqmk.nmr.az***) vasitəsi ilə məlumatlandırılacaqlar.

## Növbəti əmək yarmarkası keçirilib

***Kəngərli rayonunda növbəti əmək yarmarkası keçirilib. Tədbiri Kəngərli Rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov açıb.***

Bildirilib ki, muxtar respublikamızda həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır. Bu sahədə həyata keçirilən tədbirlər sakinlər tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.

Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıraddin Mehbalıyev bildirib ki, işaxtaran vətəndaşların, xüsusilə də gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin olunmaları məqsədilə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən bir sıra aktiv məşğulluq tədbirləri həyata keçirilir. Bu tədbirlərin davamı olaraq Kəngərli rayonunda növbəti əmək yarmarkası təşkil edilib.

Bildirilib ki, əmək yarmarkaları işaxtaranlarla işəgötürənlər arasında birbaşa əlaqələrin yaradılmasında və məşğulluq orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə keçirilmiş tədbirlərin təhlili göstərir ki, belə tədbirlərdə işaxtaran vətəndaşlar yerli məşğulluq orqanlarının xidmətlərindən daha çox bəhrələnir, işəgötürən müəssisələrin məsul nümayəndələri ilə birbaşa ünsiyyət yaratmaq imkanı qazanırlar. Qeyd olunub ki, muxtar respublikada, eləcə də Kəngərli rayonunda yeni iş yerlərinin açılması, infrastrukturun ən müasir tələblər səviyyəsində qurulması sosial rifahın təmin olunmasına müsbət təsir göstərib. Əmək potensialının keyfiyyətcə yüksəldilməsi, layiqli əməyin təminatı, iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Sonra yarmarkaya gələnlər boş iş yerləri ilə tanış oldular. 17 təşkilatdan 106 boş iş yerinin çıxarıldığı yarmarkada 33 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

## Suvarma mövsümünə hazırlıq işləri başa çatdırılıb

***Suvarma mövsümünün başlanması melioratorların üzərinə mühüm vəzifələr qoyur. Suvarmanı mütəşəkkil təşkil etmək məqsədilə sututarlarında, kanallarda, arxlarda, hidrotexniki qurğularda lazımi təmir-bərpa işləri aparılmış və suyun yığımına başlanılmışdır.***

Cari ilin birinci rübündə 11,86 kilometr məsafədə yeni suvarma xətti çəkilmiş, 520 metr açıq drenaj xətti qazılmış, 280 metr yeni kaptaj tikilmişdir. Əkin sahələrində şoranlaşma və bataqlaşmanın qarşısını almaq üçün kollektor və drenajlar, eləcə də 65,47 kilometr magistral kanal, 149 kilometr ara arxları, 2,89 kilometr kollektor və 170 metr qapalı drenaj xətti lildən təmizlənmiş, Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən 107 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir. Şərur rayonunun Ələkli kəndinə birbaşa suvarma suyunun verilməsi üçün isə Arpaçayın sol sahil kanalından yeni boru xəttinin tikintisinə başlanılmış və 1 aprel tarixədək 2150 metr suvarma boru xətti çəkilmişdir. Bu dövrdə 96 nasos stansiyası təmir olunmuşdur. Yaşayış məntəqələrini və əkin sahələrini daşqın və sel sularından qorumaq məqsədilə 8,23 kilometr istiqamətləndirici bənd salınmış, Araz çayı ətrafında 2192 metr məsafədə sahilbərkitmə işləri görülmüşdür.

Muxtar respublikada subartezian quyularının sayının artması, eləcə də kəhrizlərin bərpası yaşayış məntəqələrinin su təminatını və suvarma işlərini xeyli yaxşılaşdırmışdır. Bu istiqamətdə işlər davam etdirilmiş, Şərur rayonunun Yengicə, Kəngərli rayonunun Qabıllı və Culfa rayonunun Dizə kəndlərində yeni subartezian quyuları qazılmış, Babək rayonunun Yuxarı Uzunoba və Şərur rayonunun Püsyan kəndlərindəki subartezian quyuları bərpa edilmişdir. Ümumiyyətlə, bu dövrdə muxtar respublikada 134 subartezian quyusu və 3 kəhriz təmir olunmuş, 11 subartezian quyusunda yeni nasos quraşdırılmışdır.

Meliorasiya və Su Təsərrüfatı Komitəsi əhalinin içməli suya olan tələbatının ödənilməsini də daim diqqət mərkəzində saxlayır. "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsinə uyğun olaraq Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilmişdir. Naxçıvan şəhərinin Tumbul, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində 32,5 kilometr kanalizasiya və 19,3 kilometr içməli su xətti çəkilmiş, 318 ev kanalizasiya şəbəkəsinə qoşulmuş, 135 su sayğacı quraşdırılmışdır. Babək rayonunun Şıxmahmud kəndində isə 7,4 kilometr kanalizasiya xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

Molla Nəsrəddin – 110

# Xalqımızın milli şüurunun formalaşmasında “Molla Nəsrəddin” jurnalının rolu misilsizdir

***Azərbaycan satirik mətbuatı tarixində xüsusi yer tutan “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasından 110 il ötür. Böyük demokrat ədibimiz Cəlil Məmmədquluzadənin redaktorluğu ilə bu jurnalın ilk sayı 1906-cı il aprelin 20-də Tiflisdə işıq üzü görmüşdür. “Molla Nəsrəddin” qısa fasilələrlə 25 il nəşr olunmuşdur. Jurnalın, ümumilikdə, 748 sayı işıq üzü görüb ki, onun da 340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda çapdan çıxmışdır.***




“Molla Nəsrəddin” jurnalı qısa müddət ərzində böyük nüfuz qazanmış, təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə demokratik mətbuatın inkişafına mühüm töhfələr vermiş, bu sahədə yeni səhifə açmışdır. Xalqın üzləşdiyi sosial-siyasi, iqtisadi və mədəni problemləri satirik üslubda, sadə, anlaşıqlı tərzdə oxuculara çatdıran Mirzə Cəlil və onun Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Əliqulu Qəmküsar, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi kimi məslək yoldaşları bütün fəaliyyətləri boyunca Vətənə, millətə layiqincə xidmət göstərmişlər. Xalqın milli mənafelərinin ardıcıl ifadəçisi və müdafiəçisi olan “Molla Nəsrəddin” azadlıq mücadiləsinə, xalqımızın hərtərəfli yüksəlişinə misilsiz töhfələr vermişdir. Bu jurnalın təsiri ilə nəşr olunan “Kəlniyyət”, “Arı”, “Tuti”, “Babayi-Əmir”, “Şeypur”, “Zənbur” kimi satirik mətbuat orqanları onun ənənələrini davam etdirmişlər.

Azərbaycan mətbuat tarixində yalnız “Molla Nəsrəddin” və “Füyuzat” jurnalları ədəbi məktəb yaratmaq vəzifəsini həyata keçirə bilmişlər. “Molla Nəsrəddin” ədəbi məktəbi çoxsaylı yazıçını, şairi, rəssamı və publisisti öz ətrafında birləşdirmişdir. Cəlil Məmmədquluzadənin ardıcıl və böyük səyləri sayəsində XX əsrin əvvəllərində Azərbaycan yaradıcı ziyalılarının “Molla Nəsrəddin” ordusu formalaşmışdır. Böyük mollanəsrəddinçi yazıçı Əbdürrəhim bəy Haqverdiyevin vaxtilə etiraf etdiyi kimi, bu ədəbi cəbhədə “təb və istedad” yaradıcı qüvvələrin özlərinə məxsus olsa da, “mövzu verən və yol göstərən” Cəlil Məmmədquluzadə və “Molla Nəsrəddin” jurnalı idi. Geniş mənada “Molla Nəsrəddin” dərgisi tənqidi-realist ədəbiyyatın möhkəm ədəbi cəbhəsi, mollanəsrəddinçi ədiblərin əsərlərinin çoxcildlik külliyyatıdır.

“Molla Nəsrəddin” ədəbi məktəbi çox geniş anlayış olub, özündə bir neçə yaradıcılıq istiqamətini, çoxsaylı yaradıcı qüvvələri birləşdirən ədəbi məktəbdir. Bir çox yaradıcılıq sahələri “Molla Nəsrəddin” ədəbi məktəbi içərisində, onun hüdudları daxilində xüsusilə inkişaf edərək daha qabarıq şəkildə nəzərə çarpmışdır. Beləliklə, vahid ədəbi məktəb daxilində bir neçə məktəb, necə deyərlər, məktəb içində məktəblər yaranmışdır. “Molla Nəsrəddin” satirik şeir məktəbi, mollanəsrəddinçi yeni nəsr, satirik publisistika və karikatura məktəbləri “Molla Nəsrəddin” ədəbi məktəbinin üzvi tərkib hissələridir. Doğrudur, bu məktəblərdən hər biri, xüsusən mollanəsrəddinçi satirik şeir məktəbi həm də müstəqil ədəbi məktəb təsiri bağışlayır. Hətta “Molla Nəsrəddin” şeir məktəbinin zəminində formalaşmış xüsusi bir Sabir satira məktəbi də nəzərə çarpmaqdadır. Yaxud “Molla Nəsrəddin” karikatura məktəbi ənənələri əsasında ayrıca Əzim Əzimzadə karikaturaçılıq məktəbinin yaranması da inkarolunmaz faktdır. Konkret şəxsiyyətlərlə bağlı olan ədəbi məktəblərdə olduğu kimi, “Molla Nəsrəddin” ədəbi məktəbində də görkəmli məsləkdaşların, adlı-sanlı davamçıların meydana çıxması bu məktəbin sənət uğuru, nailiyyəti hesab olunmalıdır.

Milli müstəqillik və azadlıq uğrunda mübarizə mollanəsrəddinçilik təliminin ana xəttini təşkil edir. Mollanəsrəddinçilik təliminin daşıyıcısı olan “Molla Nəsrəddin” jurnalı və mollanəsrəddinçilər milli istiqlala bir ordudan ziyadə xidmət göstərmişdir. Bu mənada, “Molla Nəsrəddin” jurnalı Azərbaycan xalqının ən böyük istiqlal kitabıdır. Mollanəsrəddinçilik milli istiqlal məfkurəsinin cövhərini təşkil edir. Yaxud milli istiqlal uğrunda mübarizə dövrün digər axınları ilə müqayisədə daha çox mollanəsrəddinçilikdən keçmişdir.

Azərbaycançılıq məfkurəsi mollanəsrəddinçilik təliminin ideya əsasından ibarətdir. Bütövlükdə Cəlil Məmmədquluzadənin yaradıcılığı və “Molla Nəsrəddin” jurnalının fəaliyyəti Azərbaycançılıq məfkurəsi üstündə köklənmişdir. Vaxtilə böyük millətpərvər ədib qələm əhlinə millətə və Vətənə xidmətin ünvanını, istiqamətini nişan verərək yazmışdı: “Bu gün Kərbala meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, Vətən hissi varsa, oranın qeydinə qalmalıdır!”

“Molla Nəsrəddin” jurnalının fəaliyyəti tarixin faktına çevrilmişdir. Mollanəsrəddinçilik isə davam edir. Nə qədər ki Azərbaycan xalqı, dövləti və məmləkəti var, nə qədər ki milli ədəbiyyatımız və mətbuatımız fəaliyyət göstərir, “Molla Nəsrəddin” ədəbi məktəbinin ənənələri, mollanəsrəddinçilik təlimi yaşamaqda davam edəcək, inkişafa, tərəqqiyə özünün böyük və təmənnasız köməyini göstərəcəkdir. Böyük mollanəsrəddinçi Ömər Faiq Nemanzadənin fikirləri ilə desək: “Bu gün “Molla Nəsrəddin” batar, sabah Molla Xeyrəddin çıxar... “Molla Nəsrəddin”i meydana gətirən fikirlər bağlanmayacaqdır”.

Mollanəsrəddinçilik təliminin ədəbiyaşarlığını təsdiq etmək baxımından dahi Üzeyir Hacıbəyovun mülahizələri də maraq doğurur: “Bir-iki nəfər məmmədquluzadələrin, nemanzadələrin ölümü ilə elə bilirsiniz ki, “Molla Nəsrəddin”i öldürəcəksiniz? Bunu bilməlisiniz ki, onların xudanəkərdə ölməkləri ilə yaratdıqları fədakarlıq, ali fikirlər ölməz. Bunu biləsiniz ki, “Molla Nəsrəddin”i öldürmək mümkün olsa da, mollanəsrəddinçiliyi öldürmək olmaz”.

Mollanəsrəddinçilərin zəngin yaradıcılıq irsinin qiymətləndirilməsindən danışarkən görkəmli dövlət xadimi Heydər Əliyevin fikirlərini ayrıca xatırlatmaq gərəkdir. Bu isə təsadüfi deyil. Çünki ulu öndər Heydər Əliyevin fəaliyyətində və təlimində mədəniyyət, ədəbiyyat, incəsənət məsələləri də mühüm yer tutur. Bütün digər sahələrlə yanaşı, xalqımızın mədəni tərəqqisinə ardıcıl diqqət və qayğı göstərən ümummilli liderimiz məruzə, çıxış və nitqlərində bu məsələyə lazımınca nəzər yetirmiş, qiymətli fikirlər söyləmişdir.

Ulu öndərimizin böyük ehtiramla yad etdiyi ustad sənətkarlar sırasında görkəmli yazıçı-dramaturq və publisist Cəlil Məmmədquluzadə xüsusi yer tutur. “Molla Nəsrəddin” jurnalı kimi qiymətli bir mətbuat orqanı nəşr edən görkəmli ədibin yaradıcılığına, çoxşaxəli fəaliyyətinə, əsərlərinin müasirlik keyfiyyətinə xüsusi dəyər verən ümummilli liderimiz demişdir: ***“Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün bizimlədir, bizim sıramızdadır”.***

Müdrik rəhbərimiz “Molla Nəsrəddin” jurnalının xalqımızın tərəqqi və inkişafında ciddi əhəmiyyət daşıdığını vurğulayaraq bildirmişdir ki, ***“Cəlil Məmmədquluzadə dühası “Molla Nəsrəddin” jurnalında öz əksini tapdı. “Molla Nəsrəddin”, onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynadılar”.***

Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin”i yaradanadək böyük hazırlıq keçdiyini, xalq həyatını, məişətini, dünya mədəniyyətini dərindən öyrəndiyini vurğulayan ümummilli liderimiz qeyd etmişdir ki, məhz bunların sayəsində “Mirzə Cəlil “Molla Nəsrəddin” kimi dahiyanə bir məktəb yaratmış və bizə böyük mənəvi irs qoyub getmişdir”. Ümummilli liderimiz Cəlil Məmmədquluzadə irsinin, “Molla Nəsrəddin”in bütün zamanlarda öz aktuallığını saxlamasına böyük önəm vermiş, mətbuatda “Molla Nəsrəddin” ənənələrinin davamını vacib saymış, “Molla Nəsrəddin” sözünə həmişə ehtiyac duyulduğunu nəzərə çatdırmışdır. Dahi rəhbər “Molla Nəsrəddin” jurnalının bütün saylarının yenidən toplu halında nəşr edilərək çağdaş oxuculara çatdırılmasını vacib saymış, bu mühüm işə də ardıcıl diqqət və qayğı göstərmişdir.

Hazırda respublikamızda bütün sahələrdə olduğu kimi, ədəbiyyat və mədəniyyətə qayğı istiqamətində də ümummilli liderimizin siyasi kursu uğurla davam etdirilir. O cümlədən Mirzə Cəlilin və digər mollanəsrəddinçilərin irsinə də mühüm diqqət yetirilir, böyük qayğı göstərilir. 2006-cı ildə “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasının 100 illiyinin dövlət səviyyəsində qeyd olunması, 2009-cu ildə C.Məmmədquluzadənin 140 illik yubileyinin keçirilməsi barədə Prezident sərəncamının qarşıya qoyduğu vəzifələr istiqamətində həyata keçirilən çoxşaxəli tədbirlər məhz ulu öndər Heydər Əliyevin möhtəşəm siyasətinin uğurlu davamının təzahürüdür. “Molla Nəsrəddin” jurnalının bütün saylarının toplanılıb səkkiz cilddə nəşrinin başa çatdırılması da bu baxımdan xüsusi dəyərə malikdir.

Naxçıvan Muxtar Respublikasında da Mirzə Cəlilin və digər mollanəsrəddinçilərin xatirəsi uca tutulur, onlar ehtiramla yad edilir. C.Məmmədquluzadənin 140 illik yubileyi ilə əlaqədar həyata keçirilən çoxsaylı tədbirlər, hazırlanan nəşrlər, təşkil olunan elmi konfranslar, tamaşaya qoyulan əsərlər, hər il keçirilən “Mirzə Cəlil günləri” mollanəsrəddinçilərin şəxsiyyətinə və sənətinə ümummilli liderimiz Heydər Əliyevin göstərdiyi böyük diqqətin, verdiyi önəmin muxtar respublikada layiqincə davam etdirilməsinin əyani təcəssümüdür.

**“Şərq qapısı”**

# Mədəniyyət müəssisələrinin fəaliyyəti gücləndirilmişdir

***2016-cı ilin birinci rübündə muxtar respublikada mədəni-kütləvi tədbirlərin əhatə dairəsi genişlənmişdir. İlin əvvəlindən başlayaraq əlamətdar və tarixi günlərlə bağlı tədbirlər keçirilmiş, tamaşa və filmlər nümayiş etdirilmiş, 40-dan çox kitab və foto sərgiləri təşkil olunmuşdur. Naxçıvan Dövlət Filarmoniyasının kollektivi Naxçıvan şəhərində və rayonlarda 7 konsert vermiş, “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi”nin seçim turu başa çatmışdır.***

Muxtar respublikada təhsilin yeni texnologiyalar, müasir tələblər əsasında inkişafına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamı bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Sərəncamın icrası diqqətdə saxlanılmış, muzeylərlə 200-dən çox təhsil müəssisəsi arasında 8 distant dərs, o cümlədən muzeylərdə hərbi-vətənpərvərlik mövzusunda 123 açıq dərs keçilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamının icrası məqsədilə tərtib olunmuş qrafik əsasında muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarələrin kollektivləri, həmçinin ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri muzeyləri ziyarət etmiş, ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikaya gələn qonaqların muzeylərlə tanışlığı təmin edilmişdir. Muzey bələdçilərinin bilik və peşəkarlıq səviyyəsinin yüksəldilməsinə diqqət artırılmış, muzey işi ilə bağlı 2 dəyirmi masa keçirilmişdir.

Muxtar respublikada kitabxanaçılıq işinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikada elektron kitabxanalar yaradılmış, şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də kitabxanaçılıq işinin müasir tələblər əsasında təşkili təmin edilmiş, fondlar yeni kitablarla zənginləşdirilmişdir. Bu sahədə işlər 2016-cı ilin ötən dövründə də davam etdirilmiş, kitabxanalara 161 adda 3 min 602 nüsxə ədəbiyyat daxil edilmişdir. Kitabxanaçılar yaradılan şəraitdən istifadə edərək gənclərin mütaliəyə marağının artırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirir. Bu ildən başlayaraq təşkil olunan “Nağıl günləri” və “Mütaliə günləri” layihələri də bu məqsədə xidmət edir. Rüb ərzində muxtar respublikanın bir sıra kitabxanaları tərəfindən “Mütaliə günləri” layihəsi çərçivəsində 12, “Nağıl günləri” başlığı altında isə məktəbəqədər tərbiyə müəssisələrində 35 tədbir keçirilmiş, “Müasir gənclik və mütaliə mədəniyyəti” adlı dəyirmi masa təşkil olunmuşdur. “Azərbaycan Kinosu Günü” layihəsi çərçivəsində isə əlamətdar və tarixi günlərlə bağlı Naxçıvan şəhərində və rayonlarda 10 bədii və sənədli film nümayiş etdirilmişdir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tanınmış yazıçı-dramaturq Əli Əmirlinin “Varlı qadın” komediyasının ilk tamaşası olmuş, Naxçıvan Dövlət Kukla və Uşaq teatrlarında müxtəlif tamaşalar səhnələşdirilmişdir. Ötən dövrdə xalq teatrları 7 tamaşa göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə bağlı tədbirlər də davam etdirilmiş, muzeylərdə 3 açıq və 1 ustad dərs, eləcə də 1 kitab müzakirəsi keçirilmişdir. Həmçinin Naxçıvan Dövlət Universitetində Mədəniyyət və Turizm Nazirliyinin hamiliyinə verilmiş ixtisaslar üzrə təhsil alan tələbələrlə görüşlər keçirilmiş, “Naxçıvan Muxtar Respublikasının turizm-rekreasiya ehtiyatları” mövzusunda konfrans təşkil olunmuşdur.

Reklam işinin düzgün təşkili turistlərin cəlb olunması baxımından mühüm amildir. 2016-cı ildə bu amil diqqət mərkəzində saxlanılmış, 7 adda müxtəlif reklam-informasiya materialı nəşr etdirilmiş, muxtar respublikanın turizm potensialının təbliğinə diqqət artırılmışdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə əlaqədar keçirilən müşavirədə verilən tapşırıqların icrasına başlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Ali məktəbdə görkəmli bəstəkarın yubileyi qeyd olunub

***Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində görkəmli bəstəkar Qəmbər Hüseynlinin yaradıcılığına həsr olunmuş tədbir keçirilib.***

Tədbir bəstəkarın həyat və yaradıcılığını əks etdirən videoslaydın nümayişi ilə başlanıb.

Sonra ali məktəbin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək Qəmbər Hüseynlinin Azərbaycanın musiqi mədəniyyətindəki xidmətlərindən danışıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 25 noyabr 2015-ci ildə “Qəmbər Hüseynlinin 100 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb. Həmin sərəncamdan irəli gələn vəzifələrin muxtar respublikada da həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2 dekabr 2015-ci il tarixli Sərəncamla “Bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”nı təsdiq edib.

Sonra Musiqişünaslıq kafedrasının müdiri, dosent İnara Məhərrəmovanın “Qəmbər Hüseynlinin həyat və yaradıcılığı” mövzusunda məruzəsi dinlənilib.

Vurğulanıb ki, Qəmbər Hüseynli 16 aprel 1916-cı ildə Gəncədə dəmirçi Məşədi Muxtarın ailəsində anadan olub. 1925-ci ildə Gəncədəki birinci dərəcəli məktəbdə təhsil almağa başlayıb. 1927-ci ildə Gəncə orta ixtisas musiqi məktəbinin tar sinfinə qəbul edilib. 1929-cu ildə Gəncə Pedaqoji Texnikumuna daxil olub. 1934-cü ildə texnikumun tar sinfini fərqlənmə diplomu ilə bitirən Qəmbər Hüseynli pedaqoji təhsilini Bakıda davam etdirib. İki il müddətində Bakı Musiqi Texnikumunda, tanınmış musiqi pedaqoqu A.S.Şvartsın violonçel sinfində təhsil alıb. Çox keçmir ki, o, görkəmli dramaturq Cəfər Cabbarlının sözlərinə “Tellər oynadı” romans-mahnısını bəstələyir və bu gözəl vokal əsəri ilə istedadlı bəstəkar olacağını təsdiqləyir. Gənc bəstəkar 1951-ci ildə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin Bəstəkarlıq şöbəsinə daxil olub və 1954-cü ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib. Görkəmli bəstəkarın yaradıcılığında mahnı və romans mühüm yer tutur. Unudulmaz sənətkarın romans lirikasının zirvəsi sayılan “Ay işığında”, “Gecələr uzanaydı”, “İlk məhəbbət”, “Düşür yadıma”, “Güləgülə”, “Sən-sən” və sair əsərlərindəki zərifliyə heyran qalmamaq mümkün deyil. Bəstəkarın 1948-ci ildə bəstələdiyi “Cücələrim” mahnısı bütün dünyada geniş yayılaraq əsl sənət incisinə çevrilib.

Tədbir görkəmli bəstəkarın əsərlərindən ibarət konsert proqramı ilə davam etdirilib.

**N.CABBAROVA**

# Turizm potensialımızı sosial şəbəkələrdə necə təbliğ edirik?

***Turizm XXI əsrdə dünyada ən çox diqqət mərkəzində olan sahələrdən birinə çevrilib. Son illərdə bu sahənin inkişafı elə bir mərhələyə qədəm qoyub ki, turistlərə qapı açmayan və yaxud buna maraq göstərməyən ölkə özünü bütün dünyəvi proseslərdən təcrid etməyə məhkum etmiş kimi sayılır. Əgər əvvəllər turistlər getdikləri ölkədə, sadəcə, tarix, mədəniyyət, gözəl təbiət əraziləri axtarırdılarsa, indi buna çoxsaylı maraq sahələri daxildir. Çünki turizm insanların sərhədsiz düşüncə maraqlarının üzərində cəmləşmiş bir sahədir. Buna görə də son dövrlərdə çoxsaylı turizm sahələri inkişaf etdirilməkdədir. Yəni istənilən bir maraqlı məşğuliyyət növünün sonuna "turizm" sözünü artırmaqla həmin sahədə turizm bazası yaratmaq mümkündür. Ancaq istənilən halda turizm yenə də səfalı təbiət, tarix, mədəniyyət, qonaqpərvərlik və təhlükəsizlik amilləri üzərində qurulur. Hansı ki sadaladığımız amillər ölkəmizdə, eləcə də muxtar respublikamızda turizmin davamlı inkişafı baxımından əsl təməl rolunu oynayır.***

Turizm həm də o zaman inkişaf edir ki, mövcud resurslar əcnəbilər üçün əlçatan olsun. Yəni bu gün muxtar respublikamıza gəlmək istəyən turist üçün bu region haqqında ümumi məlumatların əldə edilməsi asan olsun. Bu baxımdan "dünya hörümçək toru"nun – internetin rolu əvəzsizdir. Virtual məkanın əsas oyunçularından sayılan sosial şəbəkələr müasir dövrdə turizmin inkişaf etdirilməsində ən mühüm amil sayılır. Məhz bu yaxınlarda muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə Ali Məclisin Sədri tərəfindən səsləndirilən fikirlərdə diqqətçəkən məqamlardan biri də bu sahədə elektron resurslardan düzgün istifadənin vacibliyi oldu: ***"...Çox təəssüf ki, turizm potensialının zəngin olmasına və bununla bağlı zəruri infrastrukturun mövcudluğuna baxmayaraq, muxtar respublikamız əlverişli turizm məkanı kimi lazımi səviyyədə tanıdılmır. Turizmin təbliğində elektron resurslardan istifadə mühüm əhəmiyyətə malikdir. Lakin elektron resurslarda muxtar respublikamızın görməli yerləri, tarixi abidələri, müasir turizm və sosial-mədəni infrastrukturu barədə təbliğat işi düzgün qurulmayıb. Mədəniyyət və Turizm Nazirliyi Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların internetdə yerləşdirilməsini və bu məlumatların daim yenilənməsini təmin etməli, dövlət təşkilatlarının internet səhifələrində Naxçıvanın turizm potensialı ilə bağlı bölmələr yaradılmalıdır".***

Təbii ki, müşavirədə turizmin inkişafı ilə bağlı dövlət qurumlarının qarşısına qoyulan vəzifə və tapşırıqların yerinə yetirilməsinin şahidi olacağıq. Ancaq bu yazıda bizim əsas toxunacağımız məsələ turizmə fərdi yanaşma üzərində olacaq. Yəni söhbət turizmin inkişafında vətəndaşların, xüsusilə gənclərin üzərinə düşən vəzifələrdən gedir. Hansı ki bu vəzifələrin yerinə yetirilməsi hər birimizin daxilindəki vətəndaşlıq mövqeyindən irəli gəlir.

Məlumdur ki, sosial şəbəkələr bu gün dünyada yeni sivilizasiyanın əsas təməllərindən sayılır. Azərbaycanda da sosial şəbəkə istifadəçilərinin sayı hər ötən il daha da artır. Elektron resurs istifadəçiləri hazırda dünyada baş verən prosesləri, əsasən, virtual məkanın imkanlarından yararlanmaqla öyrənirlər. Eyni ilə də digər əcnəbi ölkə vətəndaşlarının ölkəmizin və muxtar respublikamızın mövcud həyatı haqqında müəyyən məlumatlara malik olması belə resursların vasitəçiliyi ilə təmin olunur. Azərbaycan demokratik dəyərlərin daşıyıcısı olduğundan heç bir ölkə vətəndaşının virtual fəaliyyətinə müdaxilə etmək mümkün deyil. Buna görə də ölkəmizin, eləcə də muxtar respublikamızın dünyada tanıdılması, təbliğ olunması bizim bu işə verəcəyimiz töhfədən asılıdır. Doğrudur, bu gün muxtar respublikamızla bağlı həqiqətlərin sosial şəbəkələrdə təbliği aparılır, regionun müasir həyatı ilə bağlı məlumatlar öz əksini tapır. Lakin ümumi götürdükdə bu sahədə görəcəyimiz işlər çoxdur.

Birinci ondan başlayaq ki, bu gün muxtar respublikamızın virtual məkanda beynəlxalq səviyyədə hərtərəfli təbliği ilə bağlı taktiki yanaşma qənaətbəxş deyil. Bunun bir çox səbəbləri var. Məsələn, aparılan təbliğatın bayağı şəkildə təqdimatı, ciddi effekt verməyən ənənəviçilik, tarix, mədəniyyət və kulturologiya baxımından yetərli məlumatlara malik olmamaq və sair. Digər tərəfdən sosial şəbəkələr bir çox gənclərimiz üçün hələ də əyləncə, tanışlıq məqsədilə vaxt keçirmək prinsipindən kənara çıxmır. Sosial şəbəkələrdə Naxçıvan mədəniyyəti və həqiqətlərini təbliğ edən və yayan qrupların sayı hələ də azdır. Xüsusilə bu məqsədlə gənclər arasında bloqçuluğun təşviq edilməsi, bloqlardan milli mədəniyyətimizin təbliği vasitəsi kimi yararlanma səviyyəsi xeyli dərəcədə aşağıdır. Müxtəlif virtual şəbəkələrdə aktiv olan gənclər, demək olar ki, bloqsuz çıxış edirlər, əcnəbilərə həqiqətlərimizlə bağlı müfəssəl, əsaslandırılmış məlumatlar təqdim etməkdə çətinlik çəkirlər. Belə olduğu halda, gənclərin milli mənafelər naminə yeni media vasitələrindən yararlanmaq təcrübəsinin xeyli az olduğu qənaəti yaranır. Bu sahədə mühüm və ən vacib məsələlərdən biri də dil məsələsidir. Aydındır ki, hazırda muxtar respublikamızın beynəlxalq aləmdə təbliğində rus və ingilis dillərində informasiyalar mühüm əhəmiyyət daşıyır. Bu gün xarici dostlara Naxçıvanın qazandığı nailiyyətlər, tariximiz, mədəniyyətimiz, turizm imkanlarımız barədə informasiyalar ötürmək və yaxud paylaşmaq gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsi sayılacaq addımlardır. Çünki yaxın tarixi təcrübə göstərir ki, ölkəmizin, bəzən isə muxtar respublikamızın haqlı mövqeyinin yetərincə təbliğ olunmaması haqqımızda düzgün olmayan informasiyalara yol açılmasının, bəzən isə haqsız vəziyyətlərə düşməyimizin əsl səbəbi olub. Xarici dillərdə bu barədə təbliğat materiallarının yetərincə olmaması da az rol oynamayıb. Buna görə də Naxçıvanın mədəniyyətini, turizm imkanlarını daha effektli formada beynəlxalq aləmdə təbliğ etmək üçün yeni üslub və keyfiyyətdə saytların yaradılması da vacibdir. Digər bir məsələ isə ondan ibarətdir ki, hələ də muxtar respublikamızdan xaricə təhsil almağa getmiş gənclərin potensiallarından düzgün yararlana bilmirik. Halbuki həmin gənclərin olduqları ölkələrdə xeyli əcnəbi tanışları və dostları var. Bunun üzərinə onların sosial şəbəkələrdəki tanışlarını da əlavə etsək, təbliğat imkanlarımızın bir daha geniş olduğunu görərik. İnanırıq ki, yaxın müddətdə muxtar respublikamızın aidiyyəti qurumları bu məsələni də diqqətdə saxlayacaq, xaricdə təhsil alan tələbə gənclərlə bu istiqamətdə ümumi koordinasiyanı yarada biləcəklər.

Bundan başqa, gənclərin potensialından istifadə edərək internet aksiyalar da keçirmək mümkündür. Bu işdə ali məktəblər xüsusi rol oynaya bilər. İnternet aksiyaları zamanı dünyanın müxtəlif turizm şirkətlərinin, təşkilatlarının elektron, sosial şəbəkə ünvanlarına Naxçıvanın turizm potensialı, tarixi, mədəniyyəti barədə məlumatlar göndərmək olar. Həmin məlumatlarla tanış olanlarda istər-istəməz Naxçıvan barədə təəssürat yaranacaq, regionumuza maraq artacaqdır.

*Bu gün sosial şəbəkələr Naxçıvanın turizm potensialının təbliğində mühüm rol oynaya bilər. Hətta bu sahədə bir az gecikdiyimizi də etiraf etməliyik. Halbuki virtual şəbəkələr vasitəsilə doğma diyarımız haqqında müxtəlif layihələr həyata keçirə, onun qədimliyi, mədəni zənginliyi, məişəti və dəyərləri ilə bağlı dolğun məlumatlar yaya bilərik. Unutmamalıyıq ki, turizm imkanlarımızın, məişətimizin, tolerant dəyərlərimizin əcnəbilərə tanıdılması, dolayısı ilə Naxçıvanın beynəlxalq aləmdə düzgün təbliğ olunmasında mühüm rol oynaya bilər. Buna görə də sosial şəbəkələrdən düzgün istifadə etməli, təbliğat metodlarını təkmilləşdirməli, gənclərimizi bu sahənin imkanlarından düzgün yararlanmağa sövq etməliyik.*

**✍ Səbuhi HƏSƏNOV**

*Naxçıvan qalaları*

# *Əlincəqalanın* hidrotexniki qurğuları

***Naxçıvanın əlverişli təbii-coğrafi mövqeyi və iqlimi qədim dövrlərdən bu ərazidə insanların məskunlaşmasına, müxtəlif yaşayış yerlərinin və süni suvarma qurğularının inşa olunmasına imkan yaratmışdır. Qədim əkinçilik mədəniyyətlərinin formalaşmasında hidrotexniki qurğuların böyük əhəmiyyəti olmuşdur.***



*Əlincəqalada su hovuzu*



*Əlincəqalada sutoplayıcı kanal*

Məlum olduğu kimi, hələ Eneolit və Erkən Tunc dövrlərində Naxçıvanın qədim sakinləri dağ çaylarının qarşısını kəsərək onları ətraf ərazilərə çıxarmış və əkinləri suvarmışlar. Əmək alətlərinin inkişafı və məhsuldar torpaqların mənimsənilməsinə ehtiyac süni suvarmaya tələbatı daha da artırmış, insanları yeni su mənbələri kəşf etməyə məcbur etmiş, daha mürəkkəb hidrotexniki qurğuların inşasına imkan vermişdir. Belə qurğulardan biri də dağ çaylarının suyunu məhsuldar torpaqlara çıxaran kanallar idi. Təəssüf ki, onların hamısı indiyədək qalmamışdır.

Günümüzədək yaxşı qalan hidrotexniki qurğuların bir qismi Əlincəqaladadır. Əlincəqalanın hidrotexniki qurğularını iki qrupa bölmək olar. Birinci qrup qurğular qayada çapılmış su hovuzlarından ibarətdir. Bu hovuzlara su qayada çapılmış kanallar vasitəsilə gətirilmişdir. Qayada relyefə uyğun olaraq qazılan kiçik kanallar yağış sularının toplanmasına imkan verir. Həcmcə böyük olan su hovuzları qala sakinlərinin uzun müddət suya olan tələbatını ödəmişdir.

Su hovuzları başlıca olaraq Narınqalada inşa edilmişdir. Lakin bəzi hallarda Narınqaladan kənarda olan su hovuzlarına da rast gəlmək mümkündür. Su hovuzları başlıca olaraq dördkünc formalıdır. Lakin hovuzların biri dairəvi formalıdır. Hovuzlar həcmcə müxtəlifdir. Yağış sularını daha çox toplamaq mümkün olan hissələrdə, xüsusilə hündür qayaların ətəyində hovuzlar daha böyük olmuşdur.

Hovuzların qazılma texnikası, demək olar ki, bənzərdir. Əvvəlcə hovuzlar üçün insanların gedə biləcəyi əlverişli mövqelər seçilmişdir. Hovuzlar qayanın çapılması ilə inşa edilmişdir. Dördkünc formalı hovuzların daha çox üç hissəsi qayada çapılmış, ön tərəf isə bir qədər dərinləşdirildikdən sonra bəndlə möhkəmləndirilmişdir. Bu cür inşaat relyeflə bağlı olmuş, hovuzlara əmək sərfini bir qədər azaltmış və onların inşasını səmərəli etmişdir. Bəzi hovuzlar bütövlükdə qayanın içərisində qazılmışdır. Hovuzların qazılması üçün başlıca olaraq dəmir külünglərdən istifadə edilmişdir. Üçbucaq formalı bu tip külünglər 2014-2015-ci illərin bərpa və təmir işləri zamanı Əlincəqaladan aşkar olunmuşdur. Araşdırmalar göstərir ki, daşın işlənməsi və formaya salınmasında dəmir baltalar da mühüm yer tutmuşdur. Belə baltalardan Oğlanqalanın qala divarlarının daşlarını işləmək üçün istifadə olunmuşdur. Su hovuzlarının ideal şəkildə hamarlanmış divarları göstərir ki, onların inşasında daş baltalardan da istifadə edilmişdir. Şübhəsiz ki, qazılmış süxurların hovuzdan çıxarılması və daşınması üçün kəndir, keçə bel (çalov), qarmaq, ağac vedrələrdən istifadə olunmuşdur.

Narınqaladakı su hovuzları başlıca olaraq iki yerdə – "Şahtaxtı" adlanan yuxarı hissədə və ondan aşağıdakı səkidə inşa edilmişdir. Şahtaxtıda olan hovuzların biri xüsusilə böyükdür. Onun uzunluğu 25 metr, eni 5 metr, dərinliyi 2-3 metr arasındadır. Hovuzun ön tərəfi əhəng məhlulu ilə bərkidilən daşlardan inşa olunmuş divarla möhkəmləndirilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, bu tikinti texnikası digər hovuzlar üçün də xarakterikdir. Şahtaxtıdakı digər hovuzlar kiçikhəcmlidir. Bu hissədə natamam hovuzlara da rast gəlinir.

Narınqalanın mərkəzi hissəsində tikinti çox olduğu kimi, su hovuzları da çoxdur. Şübhəsiz ki, Narınqalaya sığınan əhali, xüsusilə müdafiəçilərin böyük bir qismi bu hissədə yaşamışdır. Müdafiəçilərə lazım olan yük və minik heyvanları da bu hissədə saxlandığı üçün suya tələbat çox olmuşdur. Su hovuzları daha çox bu hissədə qazılmışdır. Abidənin bu hissəsində də natamam qalan hovuzlara rast gəlmək mümkündür. Mövcud hovuzlar suya tələbatı ödəmədiyindən yenilərinin tikilməsinə ehtiyac olmuşdur. Bu hissədəki su hovuzlarından birinin uzunluğu 23, eni 4, dərinliyi yamac üzrə 3-4 metr arasındadır.

Hovuzlara su qayada qazılmış kanallar vasitəsilə gətirilmişdir. Bu kanalların eni 20-25, dərinliyi 15-20 santimetr arasındadır. Kanallar elə qazılmışdır ki, yağış zamanı su itkisinin qarşısı maksimum alınmışdır. Bu isə qala müdafiəçilərinin hər damla suya ehtiyacları olduğunu göstərən faktlardan biridir. Bir hovuz iki, yaxud üç kanal vasitəsilə su ilə təmin edilmişdir. Bir hovuzu təmin edən su kanallarının uzunluğu bəzən 200 metrə çatır.

Əhalinin suya tələbatını ödəmək məqsədilə inşa olunan hidrotexniki qurğulardan biri də kəhrizlər olmuşdur. Çünki qala sakinləri hər nə qədər cəhd etsələr də, yağıntı zamanı su itkisinin qarşısını tamamilə ala bilməmişlər. Buna görə də yer altına gedən suları da toplamağa ehtiyac olmuşdur. Onlar bunu kəhriz sistemi vasitəsilə həyata keçirmişlər. Əlincəqalada indiyədək iki kəhriz aşkar olunmuşdur. Kəhrizlərin hər ikisi Narınqaladan kənarda yerləşir.

Birinci kəhriz Qazançı yolundan qalaya daxil olan qərb girişi yaxınlığındadır. Təbii eroziya zamanı ehtimal olunan quyular tamamilə örtüldüyündən onların yerini müəyyən etmək mümkün olmamışdır. Bu kəhrizin yalnız çıxışı aşkara çıxarılmışdır. Kəhrizin girişi sal daşlardan dördkünc formada inşa olunmuş, suyun axması üçün eni 60 santimetr, uzunluğu 2 metr olan kanal düzəldilmişdir. Uçqunun qarşısını almaq məqsədilə çıxışın ətrafı nalşəkilli formada dəstək divarı ilə əhatə olunmuşdu. Hazırda bu kəhrizin girişi bərpa edilərək daha da abadlaşdırılmışdır. Yaz vaxtı kiçik dağ çayını xatırladan bu kəhriz, şübhəsiz ki, əhalinin tələbatını tamamilə ödəmişdir. Lakin qeyd etməliyik ki, quraqlıq olanda, xüsusilə yayın isti günlərində bu kəhriz quruyur.

İkinci kəhriz qalanın şərq girişi istiqamətində, Əlincəqalanın yerləşdiyi dağın ətəyindədir. Qeyd edək ki, bu kəhrizin suyundan hazırda istifadə olunur və xalq arasında "yuxarı çeşmə" adlanır. Birinci kəhrizdən fərqli olaraq bu kəhrizin quyuları da aşkar olunmuşdur. Naxçıvanda rast gəlinən orta əsr kəhrizlərinin quyuları dairəvi formalı olduğu halda, bu kəhrizin quyularının üst qismi otaq şəklindədir. Şübhəsiz ki, bu, quyuların istifadəsi ilə bağlı olmuşdur. Kəhrizin üç quyusunun olduğu müəyyənləşdirilmişdir. Şaquli qazılan orta əsr kəhriz quyularından fərqli olaraq bu kəhrizin baş quyusu, təxminən, 45 dərəcə bucaq altında qazılmışdır. Quyu 8 metr dərinlikdən sonra uzunluğu 9-10 metr olan qayaaltı boşluğa daxil olur. Bu boşluqda 3-4 nəfər rahat yerləşə bilərdi. Boşluğun baş tərəfində qaya çapılaraq 0,6 metr dərinliyə salınaraq hovuz düzəldilmişdir ki, yeraltı sular buraya toplansın. Bu hovuz yeraltı suları bir yerə toplamağa imkan vermişdir. Toplanan su saxsıdan düzəldilmiş kiçik novlar və saxsı borular vasitəsilə aşağıya ötürülmüşdür. Sonuncu quyunun divarında su səviyyəsinə enən pillələr yaradılmışdır. Bu pillələrlə quyuya enən adam quyuda qoyulmuş sutoplayıcının qarşısına sipər qoymaqla suyu sağa, sola və aşağıya buraxa bilirmiş. Üçistiqamətli paylayıcının olması kəhrizin üç çıxışının olmasına işarə edir. Qeyd edək ki, hazırda yalnız bir çıxışdan istifadə olunur.

Kəhriz sularının çıxışı yaşayış məntəqəsinə aid evlərin içərisində yerləşdiyindən Əlincəqalanı mühasirə edən düşmənin qala ətəyində su mənbəyi olduğundan xəbəri olmamışdır. 2006-cı ildə aparılan araşdırmalar göstərdi ki, dağın bu hissəsi də qala divarı ilə əhatə olunmuşdur. Qala divarı boyunca və onun içərisində yaşayış binalarının qalıqları var idi. Araşdırmalara əsasən demək olar ki, düşmən hücumu zamanı ətrafda yaşayan əhali qalanın bu hissəsində sığınacaq tapmışdır. Şübhəsiz ki, bu kəhrizin suyundan mülki əhali də istifadə etmişdir. Digər tərəfdən dağın ətəyində yerləşdiyindən bu kəhrizin suyu daha gec quruyurmuş, yağıntı bol olduqda isə su kəsilmirmiş. Ona görə qalada qıtlıq olanda gecələr qaladan enən müdafiəçilər kəhriz suyunu tuluqlara dolduraraq aparırmışlar.

***Araşdırmalar göstərir ki, Əlincəqala və onun ətrafında yaşayan əhali qədim dövrlərdən başlayaraq süni suvarmaya ehtiyac hiss etmiş və olduqca böyük zəhmət bahasına bəndlər və su kanalları inşa etmişdir ki, bu da bölgənin iqtisadi inkişafında önəmli rol oynamışdır. Əlincəqalanın su sistemi isə qalanın uzun müddət mühasirədə qalmasını təmin edən əsas şərtlərdən biri olmuşdur.***

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

# Cəlil Məmmədquluzadənin ev-muzeyindən fotoreportaj













***Azərbaycanın görkəmli dramaturqu və nasiri Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək üçün onun doğulduğu Naxçıvan şəhərində ev-muzeyinin yaradılması haqqında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1998-ci il 19 iyun tarixli Sərəncam imzalamışdır. Muzeydə Cəlil Məmmədquluzadənin özünə və ailə üzvlərinə həsr olunmuş rəsm əsərləri, dövrə məxsus məişət əşyaları, ədibin qızı Münəvvər xanıma məxsus piano, hekayələri əsasında hazırlanmış panoramlar və maketlər nümayiş etdirilir. 1882 ədəd eksponatı özündə cəmləşdirən muzeyin ekspozisiyasında hazırda 247 ədəd eksponat nümayiş olunur.***

### Molla Nəsrəddin — 110

## Sizi deyib gəlmişəm

Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə.

Çünki hükəmalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.

Ey mənim müsəlman qardaşlarım! Zəmani ki məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub o qədər xa-xa edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəkləriniz ilə üz-gözünüzü silib “lənət şeytana” dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxınız camalınıza.

Sözümü tamam etdim, ancaq bircə üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eybdir və şəxsin elminin azlığına dəlalət edir, amma hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və siz qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: “Bala, ağlama, xortdan gələr, səni aparar” və siz dəxi canınızın qorxusundan səsinizi kəsib ağlamaqdan sakit olurdunuz.

Hərdənbir ana dilini danışmaq ilə keçmişdə gözəl günləri yad etməyin nə eybi var?

**Molla Nəsrəddin,**
**1906-cı il, № 1**




## Rəssam Səkinə Qarayevanın fərdi sərgisi açılıb

***Aprelin 19-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda rəssam Səkinə Qarayevanın fərdi sərgisi açılıb. Sərgidə rəssamın 52 əsəri nümayiş etdirilir. Onlardan 9-u rəsm əsəri, 3-ü dəmir üzərində döymə, digərləri isə dekorativ-tətbiqi sənət nümunələridir.***



Fərdi sərginin açılış mərasimində Naxçıvan Dövlət Universitetinin, “Naxçıvan” Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun tələbələri, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəsm dərnəyinin üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva vurğulayıb ki, muxtar respublikada yaradılan əlverişli şərait nəticəsində istedadlı rəssamların sayı ildən-ilə artır, onların fəaliyyəti daha da genişlənir, məktəblilərin və gənc istedadların yaradıcılıq nümunələrindən ibarət sərgilər, eyni zamanda rəssamlarımızın fərdi sərgiləri təşkil olunur.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri deyib ki, bu gün qədim diyarımızın sürətli sosial-iqtisadi inkişafına paralel olaraq ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi yaradıcılıq təşkilatlarını, o cümlədən muxtar respublikanın Rəssamlar Birliyini də əhatə edib. Naxçıvanda mədəniyyət və incəsənət xadimlərinə daim diqqət və qayğı göstərilir. Onların yubileyləri qeyd edilir, fərdi sərgiləri təşkil olunur. İstedadlı rəssam Səkinə Qarayevanın fərdi sərgisinin təşkil edilməsi də bu tədbirlərin davamıdır.

Ülviyyə Həmzəyeva qeyd edib ki, hər bir istedadlı rəssamın yaratdığı rəsm əsəri, eyni zamanda onun geniş mənəvi dünyasını və intellektini əks etdirir. Bu mənada, Səkinə Qarayevanın rəsm əsərləri, dəmir üzərində döymələr, digər dekorativ-tətbiqi sənət nümunələri professionallığını göstərməklə yanaşı, xalq yaradıcılığının nümunələri kimi də diqqəti cəlb edir.

Qeyd olunub ki, rəssam öz fəaliyyətində xalq yaradıcılığına xüsusi əhəmiyyət verir. Məhz buna görə də xalq yaradıcılığının inkişafındakı səmərəli fəaliyyətinə görə “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilib.

Ülviyyə Həmzəyeva Səkinə Qarayevanı fərdi sərgisinin açılışı münasibətilə təbrik edib, rəssama yeni-yeni yaradıcılıq uğurları arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, bu gün muxtar respublika qadınları dövlət quruculuğunda, ictimai həyatda fəal iştirak edir, sosial-iqtisadi, elmi və mədəni inkişafa öz töhfələrini verirlər. Xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşadan qadınlara da xüsusi diqqət göstərilir. Bu gün Səkinə Qarayevanın fərdi sərgisinin keçirilməsi də yaradıcı qadınlarımıza göstərilən diqqət və qayğının növbəti nümunəsidir. Ramilə Seyidova rəssamı təbrik edib, ona uğurlar arzulayıb.

Sonra Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktor əvəzi İsmayıl Qəhrəmanov, rəssam Səməd Məmmədov çıxış edərək Səkinə Qarayevanın yaradıcılıq uğurlarından danışıblar.

Sonda sərgiyə baxış olub.

✍ **Rauf ƏLİYEV**


## E L A N

*Əziz naxçıvanlılar!*

2016-cı il 15 may tarixindən etibarən “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti Gəncə-Naxçıvan-Gəncə istiqamətində həftənin birinci, beşinci və bazar günləri müntəzəm uçuşlar həyata keçirəcəkdir. Naxçıvan Beynəlxalq Hava Limanının Naxçıvan, Ordubad və Şərur şəhərlərində fəaliyyət göstərən aviakassalarında bilet satışına başlanılmışdır.

Sizə xoş və rahat uçuşlar arzulayırıq.

**Əlaqə nömrələri:**

Naxçıvan şəhər aviakassası: (036) 545-28-68

Şərur şəhər aviakassası: (036) 542-28-22; 542-29-90

Ordubad şəhər aviakassası: (036) 547-10-41; 547-07-82



**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Sara Əzimova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 302**